Hörmətli millət vəkilləri və bizi izləyən həmvətənlər!

Gördüyümüz kimi, Azərbaycan Xalq Parlamenti son iclaslarında diqqəti əsasən ölkədəki vəziyyətin müzakirəsinə həsr edir. Bundan əvvəlki müzakirəmizdə də vurğuladığımız kimi, Azərbaycanda sistem böhranı sürətlə dərinləşməkdədir.

Amma təəssüf ki, Əliyev hakimiyyəti bunun qarşısını almaq üçün nəinki heç bir effektiv addım atmır, əksinə, polis zorakılığı, saxta ittihamlar, talançılıq, korrupsiya və ağlasığmaz cərimələrlə cəmiyyəti bir qədər də küncə sıxmaqla inadkarcasına getdiyi yanlış yoldan çəkilmək istəmir. Bu da azmış kimi, hakimiyyətin birbaşa təlimatı ilə ölkədəki acınacaqlı vəziyyətin müzakirə olunması onun nəzarətində olan media tərəfindən açıqcasına inkar olunur. Bunun əvəzində dünyada və regionda cərəyan edən hadisələr təhrif olunmuş şəkildə gündəm edilərək, cəmiyyətin müzakirə predmetinə çevrilir. Nəticədə Azərbaycan cəmiyyəti düşdüyü ağır vəziyyəti, gündəlik qayğılarını və mövcud problemlərin həlli yollarını müzakirə etməli olduğu halda, beynəlxalq mövzular ətrafında çəkişməklə parçalanır və qütbləşir. Cəmiyyətdə nifrət və barışmazlıq mühiti yaradılır, insanlar onların həyatına birbaşa təsiri olmayan məsələlər ətrafında sərt mübahisələrə cəlb olunur. Təəssüflə deməliyəm ki, bir çox hətta qismən müstəqil media platformaları və rəy liderləri də böyük həvəslə bu işə dəstək verirlər.

Beləliklə də ölkə daxilində mövcud olan dərin böhran arxa planda qalır və hakimiyyət də öz manipulyasiya siyasətini uğurla davam etdirir.

Bununla əsla demək istəmirəm ki, Azərbaycan ətrafında baş verənlər, xüsusilə də ABŞ-İsrail tandeminin Irana qarşı başlatdığı müharibə ölkəmiz üçün risklər və təhdidlər doğurmur. Doğurur əlbəttə, xüsusilə də Azərbaycan hakimiyyətinin yürütdüyü yanlış xarici siyasət sayəsində ölkəmizin nəinki təhlükəsizliyi, hətta suverenliyi də ciddi çağırışlarla üzləşə bilər. Amma bu, daha çox ekspertlər səviyyəsində müzakirə olunmalıdır, cəmiyyəti belə müzakirələrə cəlb etmək isə yuxarıda dediyim kimi, ölkə daxilində mövcud olan ağır sosial-iqtisadi vəziyyətin müzakirəsini arxa plana keçirmək, xalqı parçalamaq və bununla da cəmiyyətə nəzarəti əldə saxlamaq niyyəti güdür. Bu şəraitdə hakimiyyət hansısa pozitiv addımlar atmağa cəhd etsəydi, bunu da anlamaq olardı. Amma görünən tam əksini deməyə əsas verir: korrupsiya, rüşvətxorluq, talançılıq daha geniş vüsət alır, ölkənin bütün resurslarının bir ailənin əlində cəmləşdirilməsi daha da sürətlənir, idarəetmə sistemi çəkməkdə davam edir, inhisarçılıq və biznes mühitinin məhdudlaşdırılması surətlənir. İcazəsizlə son günlər baş verən iki məsələni diqqətinizə çatdırım.

Birinci misal Azərbaycanda tütün məmulatlarının satışı və istifadəsi qaydalarının pozulması ilə bağlı tətbiq olunan cərimələrlə bağlıdır. Onlar ABŞ-ın bir çox ştatlarında tətbiq olunan anoloji cərimələrdən xeyli yüksəkdir. Hələ onu demirəm ki, həmin cərimələrin tətbiqi ilə bağlı şərtlər o qədər qeyri-müəyyəndir ki, faktiki insanlar qayda pozmadan belə cərimələrə, daha doğrusu isə dövlət zorakılığına məruz qala bilərlər və bu da artıq baş verməkdədir. Bunun məqsədli şəkildə edilməsi zərrə qədər də şübhə doğurmur, çünki məqsəd təkcə vətəndaşı talamaqla büdcəyə vəsait toplamaq deyil, həm də onu daim təzyiq altında saxlamaqdır.

İkinci isə bu günlərdə bahalı maşınları olan insanların Daxili işlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə, daha dəqiq və mahiyyətinə uyğun adı "bandotdel" olan quruma çağırılaraq 15 min manat pulunun alınmasıdır. Söhbət Mercedes G-klass və ya Gelendewagen adlanan avtomobil markasının sahibləri də gedir. Burada diqqət çəkən məqamlardan biri də budur ki, belə bir soyğunçuluğu yalnız hakimiyyətin ən yüksək pilləsindən verilən tapşırıqlar əsasında həyata keçirmək mümkündür, çünki qiyməti yüz minlərlə dollarla ölçülən belə avtomobillərin sahibləri heç də sıradan vətəndaşlar deyil.

Yüz minlərlə və bəlkə də milyonlarla sadə vətəndaşların qayğısı isə gündəlik ərzaq ehtiyacını

ödəməkdir. Azərbaycan orta və minimum aylıq əməkhaqqının səviyyəsinə görə Cənubi Qafqazda üçüncü yerdədir, ən bahalı istehlak bazarına malikdir, uşaq pulu verilməyən yeganə ölkədir, işsizlik səviyyəsi ən yüksək olan dövlətdir. Azərbaycan insanını da narahat edən, onun gündəlik həyatını dözülməz duruma salan bunlardır.

Hörmətli millət vəkilləri və dəyərli həmvətənlər! Düşünürəm ki, yaranmış vəziyyətdə Azərbaycan Xalq Parlamentinin əsas vəzifəsi elə sadalanan problemləri gündəmə gətirib, onların həlli yollarını aramaqdan ibarət olmalıdır. Parlament xalqın fəal kəsimini, xüsusilə də onun ziyalılarını aktiv müzakirələrə cəlb etməlidir. Bu məqsədlə də Azərbaycan Xalq Parlamentinə qarşıdan gələn seçkilərdə biz cəmiyyətin bütün təbəqələri ilə aktiv ünsiyyət qurmalı, onların nümayəndələrinin parlamentə cəlb edilməsinə çalışmalıyıq. Bunun üçün ölkədə mövcud olan siyasi konyunkturani dəyişmək və siyasətə müasir standartlara cavab verən yüksək mədəniyyət və kübarlıq gətirməliyik.

Biz fəaliyyətimizin önündə daim sadə insanların gündəlik qayğılarını və onların ağrı-acılarını görməli, həmin məsələlərin həlli yollarını göstərməliyik. İnanıram ki, yalnız bu halda Azərbaycan Xalq Parlamenti xalqın böyük bir hissəsini öz ətrafında birləşdirməyə və ölkədəki vəziyyətə təsir etmək gücündə olacaqdır. Azərbaycan Xalq Parlamentinin dönəm sədri kimi ölkədəki vəziyyəti dəyişmək istəyi olan, sosial statusundan asılı olmayaraq hər kəsi Azərbaycan Xalq Parlamentinə qarşıdan gələn seçkilərdə iştiraka dəvət edirəm. Yalnız birləşərək ölkədə qanunun aliliyini, azad iqtisadi münasibətləri, hər birimizin qüruruna , ləyaqətinə hörmət olunmasını təmin edəcək azadlığımızı bərpa edə bilərik. Bu da mütləq olacaq, çünki bütün sadalananlar zamanın tələbindən və dialektik inkişafın qanunauyğunluqlarından irəli gəlir.

Diqqətinizə görə təşəkkür edirəm!

04.04.2026